# SABİT RƏHMANIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci ildə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri - tanınmış yazıçı və dramaturq Sabit Rəhmanın anadan olmasının 90 illiyi tamam olur.

Azərbaycan nəşrinin və dramaturgiyasının, xüsusilə komediya janrının inkişafında Sabit Rəhmanın böyük xidmətləri olmuşdur. Azərbaycan ədəbiyyatında əsası Mirzə Fətəli Axundov tərəfindən qoyulmuş komediya janrı Sabit Rəhmanın yaradıcılığında öz davamını tapmış və inkişaf etmişdir. Mövzularının aktuallığı, orijinallığı və incə xalq yumoru ilə səciyyələnən bu komediyalar Azərbaycanda musiqili komediya janrının və kinematoqrafiyanın inkişafında da mühüm rol oynamışdır.

Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında böyük xidmətləri olan Sabit Rəhmanın 90 illik yubileyinin respublikada layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Sabit Rəhmanın 90 illik yubileyi tədbirlərinin hazırlanması və həyata keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

**Elçin Əfəndiyev**
**- Azərbaycan Respublikası Baş nazirinin müavini**

### Təşkilat Komitəsinin üzvləri:

| | |
|---|---|
| Rəfael **Allahverdiyev** | - Bakı şəhər İcra Hakimiyyətinin başçısı |
| Fatma **Abdullazadə** | - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri |
| Fərəməz **Maqsudov** | - Azərbaycan Elmlər Akademiyasının prezidenti |
| Polad **Bülbüloğlu** | - Azərbaycan Respublikasının mədəniyyət naziri |

| | |
|---|---|
| Misir **Mərdanov** | - Azərbaycan Respublikasının təhsil naziri |
| Nizami **Xudiyev** | - Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri |
| Oqtay **Mirqasımov** | - "Azərkinovideo" İstehsalat Birliyinin sədri |
| Anar **Rzayev** | - Azərbaycan Yazıçılar Birliyinin sədri |
| Bəxtiyar **Vahabzadə** | - Xalq yazıçısı |
| Yaşar **Qarayev** | - Azərbaycan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru |
| Hacıbaba **Bağırov** | - Azərbaycan Dövlət Musiqi Komediya Teatrının direktoru |
| Nəsibə **Zeynalova** | - Xalq artisti |
| Emin **Sabitoğlu** | - Bəstəkar |

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 aprel 2000-ci il**
**№ 378**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu. – 2000. – 30 aprel, № 4. – S. 2057-2058.**